**Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 2212 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, 2007-ci il aprelin 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Saziş"in icrasını və iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***

*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Hindistan Respublikası arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 oktyabr 2007-ci il
2445

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **(“Azərbaycan” qəzeti 17 yanvar 2009-cu il, 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17)**
2. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
3. 8 fevral 2012-ci il tarixli **2001** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Respublika” qəzeti, 12 fevral 2012-ci il, 034** , **“Azərbaycan” qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 109**)
4. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı ( **“Respublika” qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
5. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
6. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414)**
7. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
8. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
9. 17 iyul 2018-ci il tarixli **350** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 18 iyul 2018-ci il, 157, Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1596)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 17**) ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri "**Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri** " sözləri ilə, "**Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorunun birinci müavini** " sözləri "**Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti**" sözləri ilə əvəz edilmişdir, "**Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini**" sözləri çıxarılsın və "**Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini** " sözlərindən sonra "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini** " sözləri əlavə edilmişdir.

8 fevral 2012-ci il tarixli **2001** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 12 fevral 2012-ci il, 034** , **"Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 109**) ilə "**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**" sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri ilə, "**Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini**" sözləri "**Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini** " sözləri ilə, "**Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini** " sözləri "**Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini**" sözləri ilə, "**Tamerlan Qarayev - Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri**" sözləri "**İbrahim Hacıyev - Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri** " sözləri ilə əvəz edilmişdir, "**Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini** " sözlərindən sonra "**Vaqif Əliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini**" sözləri əlavə edilmişdir və "**Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini**" sözləri çıxarılmışdır.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384**) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini** " sözləri "**energetika nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Bəhram Əliyev**" sözləri "**İlham Quliyev**" sözləri ilə, "**Qulu Novruzov**" sözləri "**Firudin Qurbanov**" sözləri ilə və "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları nazirinin müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**) ilə 1-ci bəndində "**Milli Bankının**" sözləri "**Mərkəzi Bankının**" sözləri ilə əvəz edilmişdir.

17 iyul 2018-ci il tarixli **350** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 18 iyul 2018-ci il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1596**) ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri**~~

| | |
|---|---|
| ~~Hüseynqulu **Bağırov**~~ | ~~- Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~ |

~~**Komissiyanın üzvləri:**~~

| | |
|---|---|
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Vaqif **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini~~ |
| ~~Sahil **Babayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini~~ |
| ~~Tofiq **Rəfiyev**~~ | ~~- Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini~~ |
| ~~Azər **Bayramov**~~ | ~~- Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | ~~- Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~Musa **Pənahov**~~ | ~~- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~ |
| ~~*İlham **Quliyev***~~ | ~~- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Firdovsi **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~Teymur **Mehdiyev**~~ | ~~- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Firudin **Qurbanov***~~ | ~~- Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Abbas **Vəlibəyov**~~ | ~~- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~İltimas **Məmmədov**~~ | ~~- Azərbaycan Respublikası *rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |
| ~~Səfər **Mehdiyev**~~ | ~~- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Elşad **Nəsirov**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti~~ |
| ~~Sabir **İlyasov**~~ | ~~- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti~~ |
| ~~Vadim **Xubanov**~~ | ~~- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~İbrahim **Hacıyev**~~ - | ~~- Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |